**Azərbaycan Respublikasının**
**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti**
**Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri**
**publik hüquqi şəxsi**

AZ 1073, Bakı şəh., H.Cavid pr., 135
Faks: (+99412) 510-85-31
Tel.: (012) 510-84-30; (daxili 71-32, 72-31, 71-38)
Email: dedkr@emlak.gov.az

«27» sentyabr 2022-ci il №2022211O8069

**Vətəndaş Məmmədov Nazim**
**Cuma oğluna**

**Ünvan: Qax rayonu, Güllük kəndi**

**Elektron ünvan: ulvimemmedzade@mail.ru**

Müraciətinizə baxılması barədə

**Hörmətli Nazim Məmmədov!**

Qax rayonu, Güllük kəndində yerləşən torpaq sahələrinə dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın alınmasında qarşılaşdığınız problemin həllinə köməklik göstərilməsi barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə daxil olmuş 2 sentyabr 2022-ci il tarixli elektron müraciətinizə aidiyyəti üzrə baxılmışdır.

Araşdırma zamanı "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxsinin 12 saylı Şəki Ərazi İdarəsinin arxiv materiallarında sizin və ailə üzvlərinizin adına Qax rayonu, Güllük kəndində yerləşən 1,73 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsinə kod 40306018, JN-279 saylı "Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı", həmçinin 0,08 ha həyətyanı torpaq sahəsinə kod 40306018, JN-222F saylı "Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə"nin mövcud olduğu müəyyən edilmişdir.

Nəzərinizə çatdırırıq ki, sözügedən torpaq sahələrinin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması ilə bağlı tərəfinizdən hüquqmüəyyənedici sənədlər 12 saylı Şəki Ərazi İdarəsinin Qax rayon şöbəsinə təqdim edildiyi təqdirdə həmin məsələyə qanunvericiliyə uyğun olaraq baxılacaqdır.

Eyni zamanda bildiririk ki, Qax rayonu, Güllük kəndində iki yerdə istifadənizdə olan torpaq sahələrinə (fındıq bağı) dair hər hansı hüquqmüəyyənedici sənəd təqdim edə bilmədiyinizə görə müraciətinizin icrası mümkün olmamışdır. Bu barədə 12 saylı Şəki Ərazi İdarəsinin mütəxəssisləri tərəfindən sizinlə əlaqə saxlanılmış və qanunvericiliyin tələbləri izah edilmişdir.

**Hörmətlə,**

**İdarə Heyətinin sədr müavini** **Elvin Məmmədov**

İcraçı: Fikrət Hüseynov
Əlaqə nömrəsi: (+99412) 510-84-30 (daxili: 71-51)